**Dahi lider Heydər Əliyev ölkəmizin ekoloji problemlərinin həllini, unikal təbiət abidələrinin qorunmasını daim diqqət mərkəzində saxlamış, ekoloji vəziyyətin yaxşılaşdırılması məsələlərinə xüsusi qayğı ilə yanaşmışdır. Odur ki, ulu öndər "insanları təbiətin övladı" kimi dəyərləndirərək respublikamıza rəhbərlik etdiyi bütün dövrlərdə daim təbii sərvətləri göz bəbəyi kimi qorumağı tövsiyə etmişdir. Məhz onun dövründə Zəngəzur, Ağgöl, Şirvan Milli parkları həyata vəsiqə almışdır. Ulu öndər Heydər Əliyevin ətraf mühitin mühafizəsi sahəsindəki xidmətlərinin davamı olaraq bu gün yeni milli parklar yaradılır, inkişaf etdirilir.**

# Talış dağlarının unikal, relikt və endemik təbiət möcüzələri





Hirkan Milli Parkı Prezident İlham Əliyevin 2004-cü il 9 fevral tarixli Sərəncamı ilə yaradılmışdır. Parkın yaradılmasında əsas məqsəd həmin ərazidə təbiətin kompleks şəkildə qorunması, üçüncü dövrün relikt və endemik bitki növlərinin mühafizəsi, Azərbaycan Respublikasının "Qırmızı Kitab"ına daxil edilmiş tipik flora və fauna növlərinin qorunub saxlanılması, ətraf mühitin monitorinqinin həyata keçirilməsi, ictimaiyyətin məlumatlandırılması, eləcə də tədqiqatlar, turizm və istirahət üçün şəraitin təşkilidir.

Hirkan Milli Parkının ərazisinin çox hissəsini meşələr və şimal-qərbdən cənub-şərqə doğru uzanan sıra dağlar əhatə edir. Milli Parkın meşələrində ayıdöşəyi, Hirkan bigəvəri, Hirkan şümşadı, pırkal, müxtəlif lianlar geniş yayılmışdır. Bu bitkilərin əksəriyyəti Azərbaycanın "Qırmızı Kitab"ına daxil edilmişdir.

Milli Parkın yerləşdiyi Lənkəran zonasının subtropik meşələrinin səciyyəvi xüsusiyyətlərindəıı biri də burada bir çox endemik, nadir ağac və kol bitkilərinin geniş yayılmasıdır. Milli Parkın entomofaunası (həşəratlar) endem növlərlə zəngindir. Ərazidə "Qırmızı Kitab"a daxil edilmiş növlərdən tünd-qırmızı Talış uzunbığı, Talış kökyeyəni, üçpərli Talış qacağanı, palıd diserkası, eyfema, Talış brameyası, iri tənək hafı, Oxim qızılı kəpənəyi, Aleksandra sədəllisi, Talış məxməri kəpənəyi və başqa həşəratlara rast gəlmək olar.

Ərazidə suda-quruda yaşayan heyvan növlərindən adi triton, daraqlı triton, Suriya sarımsaqiyli qurbağası, Qafqaz xaçlıcası, adi quru qurbağası yayılmışdır. Milli Parkın ərazisində sürünənlərdən Aralıq dənizi tısbağası, zolaqlı çılpaqgöz kərtənkələ, girdəbaş yovşanlıq kərtənkələsi, xarabalıq kələzi, eskulap ilanı mövcuddur.

Hirkan Milli Parkının ornitofaunasına (quşlar) daxil olan qara leylək, məzar qartalı, qıvrımlələk qutan, turac, mərmər cürə, Talış qırqovulu, Hirkan arıquşu, toğlugötürən quşların adları Azərbaycanın "Qırmızı Kitab"ına düşmüşdür. Ümumiyyətlə, ərazinin bitki aləminin zənginliyi burada çoxsaylı heyvanların yaşamasına imkan yaratmışdır. Parkın heyvanat aləmi çox zəngindir. Burada bəbir, xallı maral, vaşaq, porsuq, çöl donuzu, cüyür, yenot növlərinə rast gəlmək olar.

Relikt növlərlə zəngin olan və unikal landşafta malik Hirkan meşələrinin UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsi barədə qərar təşkilatın Səudiyyə Ərəbistanının Ər-Riyad şəhərində keçirilən 45-ci sessiyasında qəbul olunub.

Hirkan meşələri Xəzər dənizinin cənub-qərb və cənub sahillərini əhatə edən meşə massividir və planetimizdə öz unikallığını qoruyub saxlayan nadir ekosistemlərdən biridir.





**M.MİRZƏ,**
**"Respublika".**

Respublika .- 2025.- 12 fevral (№ 29).- S.11.